1_Layout 1 29.08.2019 18:37 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 17 (558)

31 avqust 2019-cu il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# Mehriban Əliyeva yorulmaz fəaliyyəti ilə Azərbaycan xalqının dərin rəğbətini və sevgisini qazanıb



Müasir müstəqil Azərbaycanın inkişafında, sosial məsələlərin həllində yaxından iştirak etmək, mərhəmət, əxlaqi ideyalara sadiqlik, insanlara daim kömək əli uzatmaq, xeyirxah işlər görmək... Bütün bunlar Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın həyat fəlsəfəsinin əsas qayəsini təşkil edir. Prezident İlham Əliyevlə çiyin-çiyinə çalışan, onun ömür-gün yoldaşı və ən yaxın silahdaşı olan Mehriban Əliyeva ölkəmizin dinamik inkişafı istiqamətində görülən işlərə ciddi töhfələr verir.

Mehriban Əliyeva on beş ildir Heydər Əliyev Fonduna uğurla rəhbərlik edir. Xalqımızın xeyriyyəçilik ənənələrinin dirçəldilərək daha geniş miqyas alması da Heydər Əliyev Fondunun prezidentinin göstərdiyi şəxsi nümunə nəticəsində mümkün olub.

On beş ildir ki, Mehriban Əliyeva UNESKO-nun xoşməramlı səfiri missiyasını şərəflə yerinə yetirir. Eyni zamanda, İSESKO-nun da xoşməramlı səfiri olaraq Azərbaycan tarixini, mədəni irsini, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq istiqamətində yorulmaz fəaliyyət göstərir: İçərişəhər, o cümlədən, Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Həmçinin, muğam və aşıq sənətimiz, "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti", "Dədə Qorqud irsi", Azərbaycan kəlağayı sənəti Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına salınıb. Nəhayət, Azərbaycan bu ilin iyulunda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına uğurla ev sahibliyi edib.

2017-ci il fevralın 21-də Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi onun zəngin fəaliyyətinin və təşkilatçılıq bacarığının məntiqi nəticəsi kimi dəyərləndirilir. Ötən müddətdə bu yüksək və məsul vəzifədə gördüyü işlərlə Prezidentin və xalqın etimadını layiqincə doğruldur.

Mehriban Əliyevanın fəaliyyətində əhalinin həssas təbəqələrinin, o cümlədən, məcburi köçkünlərin problemlərinin həlli xüsusi yer tutur. O, Birinci vitse-prezident kimi ilk müşavirəsini qaçqın və məcburi köçkün ailələrinə həsr etdi. Həmin müşavirədən dərhal sonra müvafiq tədbirlər planı hazırlandı və real işlər başlandı. Qısa müddətdə 300 minə yaxın qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırıldı. Ötən il daha 5923 məcburi köçkün ailəsi, 2019-cu ilin birinci rübündə isə 2227 məcburi köçkün ailəsi yeni mənzillərə köçürüldü.

Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığı ilə Aprel döyüşləri zamanı sağlamlıqlarını itirmiş bir qrup əsgər və zabit yüksək texnologiyalı protezlərlə təmin edildi.

Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşdırılan "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" və digər proqramlar təhsilin inkişafında mühüm rol oynayır. 2005-ci ildən icrasına başlanılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində 100 mindən çox şagirdin təhsil aldığı 500-dək məktəb binası inşa olunub və yenidən qurulub. "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində isə 40-a yaxın uşaq müəssisəsi əsaslı şəkildə təmir edilib.

Əhalinin sağlamlığı məsələsinə gəlincə, Mehriban Əliyevanın təşəbbüsü olan "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi bənzərsiz layihələr, bir çox xeyriyyə aksiyaları böyük rəğbətlə qarşılanır, öz müsbət nəticələrini verir. Bu layihələr çərçivəsində Bakıda müasir Talassemiya Mərkəzi, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya Mərkəzi, Mərkəzi Neftçilər Xəstəxanasında Cərrahiyyə və Orqan Transplantologiya Mərkəzi, Psixonevroloji Uşaq Mərkəzi və digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib.

Mehriban Əliyevanın təşəbbüsü ilə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, mədəniyyətimizin, dövlətçilik ənənələrimizin, tariximizin dünyada təbliği sahəsində davamlı, məqsədyönlü iş aparılır. Avropa Parlamentinin mənzil-iqamətgahında, Afinada, Kannda Azərbaycan mədəniyyəti günlərinin keçirilməsini, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzinin açılmasını, dünyanın müxtəlif şəhərlərində görkəmli şəxsiyyətlərimizin abidələrinin ucaldılmasını buna misal göstərmək olar.

Son illər ölkəmizin böyük uğurla ev sahibliyi etdiyi "Eurovision" beynəlxalq mahnı müsabiqəsi, birinci Avropa Oyunları, eləcə də IV İslam Həmrəyliyi Oyunları Mehriban Əliyevanın yüksək təşkilatçılıq bacarığına malik olduğunu üzə çıxardı.

Mehriban Əliyevanın çoxşaxəli və xoşməramlı fəaliyyəti həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni, Avropa Olimpiya Komitələrinin Ali ordeni, Fransanın "Şərəf Legionu" ordeni, İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordeni, Polşanın "Böyük Komandor Xaçı" ordeni, Rusiyanın "Dostluq" ordeni, UNESKO-nun "Qızıl Motsart" medalı... Bu, Azərbaycanın Birinci vitse-prezidentinin layiq görüldüyü mükafatların heç də tam siyahısı deyil. Mehriban Əliyeva hesab edir ki, ən böyük mükafatı xalqın ona olan sevgisi, inamı və etimadıdır.

**AZƏRTAC**

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI




***Avqustun 18-də Daxili İşlər Naziri general-polkovnik Vilayət Eyvazov DİN Daxili Qoşunlarının paytaxtda yerləşən "N" saylı hərbi hissəsində olub. Əvvəlcə Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov general-polkovnik Vilayət Eyvazova şəxsi heyətin və hərbi texnikanın baxışa hazır olması barədə raport verib.***

Nazir şərəf manqası ilə salamlaşdıqdan sonra şəxsi heyətin kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu və təminat məsələləri ilə yaxından tanış olub, xidməti istifadədə olan texnikaya baxıb, ərazidə aparılan abadlıq, quruculuq işləri ilə maraqlanıb.

Sonra hərbi hissənin sıra meydanında hərbi qulluqçuların və əsgərlərin qarşısında çıxış edən nazir V.Eyvazov Ulu Öndərin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının artdığını, beynəlxalq mövqelərinin möhkəmləndiyini bildirib, möhtərəm dövlət başçımızın ordu quruculuğuna, o cümlədən, Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatına, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıran nazir şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla qeyd edib.

O, eyni zamanda bildirib ki, torpaqlarımızın 20 faizi işğal altında olduğuna görə hazırda ölkəmiz müharibə şəraitindədir. Ona görə də Daxili Qoşunların şəxsi heyəti öz üzərlərinə düşən xidməti vəzifələri ilə bərabər həm də torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpası üçün hər an hazır olmalı, döyüş hazırlığı səviyyələrini daim yüksək saxlamalıdırlar.

Şəxsi heyətə konkret tapşırıq və tövsiyələrini verən Daxili İşlər Naziri hərbi qulluqçuların qanunvericiliklə müəyyən edilmiş vəzifələrin və verilən tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə, xalqa, dövlətə və Prezidentə sədaqətlə xidmət edəcəklərinə əminliyini ifadə edib, xidmətdə fərqlənən hərbi qulluqçuların mükafatlandırılması ilə bağlı müvafiq göstəriş verib.

Sonra Daxili İşlər Naziri V.Eyvazovun rəhbərliyi ilə hərbi hissənin qərargahında komandir heyəti ilə əməliyyat müşavirəsi keçirilib.

Tədbirin sonunda general-polkovnik V.Eyvazov hərbi hissənin əsgər yeməkxanasında şəxsi heyətlə birlikdə nahar edib.





2_Layout 1 29.08.2019 18:43 Page 1



# 97 İL ÖNCƏ MUSTAFA KAMAL ATATÜRKÜN RƏHBƏRLİYİ İLƏ QAZANILAN QƏLƏBƏ İLƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN TƏMƏLİ QOYULDU




Türkiyə Cümhuriyyətinin dövlətçilik tarixində mühüm yerlərdən birini tutan 30 avqust - Zəfər bayramının növbəti ildönümü qeyd edildi. Zəfər bayramına bu cür önəmin verilməsi isə heç də təsadüfi deyil. 30 avqust Türkiyə Cümhuriyyətinin quruluşunun başlanğıcı kimi qəbul edilir. Bu tarixdə Türkiyə Cümhuriyyətinin təməli qoyulub. Daha doğrusu, Türk xalqı və Türkiyə Silahlı Qüvvələri Mustafa Kamal Atatürkün rəhbərliyi ilə 1922-ci il avqustun 30-da tarixi zəfərini qazanıb. Bu böyük zəfər türk millətinin sarsılmazlığının və iradəsinin nümunəsidir. Bu qələbə heç də asanlıqla qazanılmayıb.

I Dünya Müharibəsindən məğlub çıxan Osmanlı dövlətini işğalçı ölkələr arasında paylaşdırmaq planlarının qarşısı məhz bu savaşlar və qəhrəmanlıqlar nəticəsində alınıb. Ölkə bütünlüyünü qorumaq üçün başlanan çoxsahəli hərbi mücadilə bir neçə mərhələdən keçib. Bu mücadilə 1919-1922-ci illər arasında gerçəkləşərək, 11 oktyabr 1922-ci ildə imzalanan Mudanya müqaviləsilə faktiki və 24 iyul 1923-cü ildə imzalanan Lozanna anlaşması ilə rəsmən sona çatıb.

Zəfər bayramı 1922-ci ilin 26 avqustunda başlayıb 30 avqustda Dumlupınarda Mustafa Kamal Atatürkün baş komandanlığı altında qələbəylə nəticələnən "Başkomutanlıq Meydan Müharibəsi"ni (Böyük Taarruz) anmaq üçün qeyd edilən bayramdır. İşğalçı orduların ölkə sərhədlərindən çıxması bir qədər sonra baş versə də, 30 avqust simvolik olaraq ölkə torpaqlarının geri alındığı günü təmsil edir. Zəfər bayramı ilk dəfə 30 avqust 1923-cü ildə Afyonqarahisar, Ankara və İzmirdə qeyd olunub. Rəsmi olaraq isə 1936-cı ilin may ayında elan olunub.

Yeri gəlmişkən, bu sırada bir məqama da toxunmaq yerinə düşər. Bu "bir millət iki dövlət" olan Azərbaycanla Türkiyənin tarixlərindəki oxşarlıqla bağlıdır. Məsələ burasındadır ki, hər iki dövlətin müstəqilliyi ağır və qanlı savaşlardan keçib. Dahi Mustafa Kamal Atatürk İstiqlal Savaşına öndərlik etməklə, Osmanlı imperiyasının ərazilərinin xarici işğalçılar tərəfindən ələ keçirilməsinin qarşısını aldı və Türkiyə Cümhuriyyətinin əsasını qoydu. Ulu Öndər Heydər Əliyev isə 1993-cü ildə ikinci dəfə hakimiyyətə gələndən sonra xarici və daxili düşmənlərin parçalanma planlarının mərkəzində dayanan Azərbaycanı yox olmaq təhlükəsindən xilas etdi. Müasir, qüdrətli və daim inkişaf edən dövlətin əsasını qoydu.

97 il öncə Zəfər bayramı - bu tarixi gün münasibətilə xalqa müraciət edən Mustafa Kamal Atatürkün "Böyük Türk milləti! Ordularımızın qabiliyyət və qüdrəti düşmənlərimizə dəhşət, dostlarımıza əmniyyət verəcək şəkildə özünü göstərdi. Böyük zəfər sənin əsərindir" sözləri ümumilikdə, Türkiyə üçün yaşam şüarına çevrilib. Və bu gün həmin şüara sadiq qalan türk milləti dahi Atatürkün yadigarı və onun qurduğu dövlətin bir nömrəli keşikçisi olan Türk ordusunun daha da güclənməsi üçün əlindən gələni edir. Bir sözlə, güclü ordu, güclü Türkiyə deməkdir!

# HƏRBİ HİSSƏLƏRİN YARADILMASININ 27-Cİ İLDÖNÜMÜ QEYD OLUNUB

***Bu münasibətlə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov 25033 və 16073 saylı hərbi hissələrin şəxsi heyətinə təbrik məktubu ünvanlayıb***

***Avqustun 27-də Daxili Qoşunların 25033, 28-də isə 16073 saylı hərbi hissəsinin yaradılmasının 27-ci ildönümü tamam olub. Bu münasibətlə hərbi hissələrdə təntənəli mərasim keçirilib.***

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov hər iki hərbi hissənin şəxsi heyətinə təbrik məktubu ünvanlayıb.

Təbrikdə yarandıqları gündən etibarən Vətənə sədaqətlə xidmət edən hərbi hissələrin ötən 27 il ərzində təqdirəlayiq xidmət yolu keçərək, maddi-texniki tədris bazasının möhkəmləndirilməsi, döyüş təlimi və xidmətin səviyyəsinin artırılması, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində nəzərəçarpacaq irəliləyişlər əldə etdikləri, nailiyyətlər qazandıqları vurğulanıb.

Qeyd olunub ki, ötən bu müddət ərzində regionda ictimai sabitliyin qarantı sayılan hər iki hərbi hissənin hərbi qulluqçularının peşə hazırlığının artırılması, tədris bazasının təkmilləşdirilməsi və inkişafı, eləcə də hərbi intizamın gücləndirilməsi istiqamətində çoxsahəli işlər görülüb.

Xüsusi olaraq vurğulanıb ki, şəxsi heyətə göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün ciddi nizam-intizamın hökm sürdüyü hərbi hissələrimiz qarşıya qoyulan hər bir xidməti-döyüş tapşırığını tam və keyfiyyətlə, yüksək səviyyədə yerinə yetirməyə hazırdır.

Təbrikdə, eyni zamanda, hərbi hissələrin şəxsi heyətinin Milli Liderimiz, ordumuzun memarı möhtərəm Heydər Əliyevin ideyalarına sadiq qalaraq, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi etimadı doğruldacağına, Daxili Qoşunların qəhrəmanlıq ənənələrini bundan sonra da davam etdirəcəyinə, müqəddəs Döyüş Bayrağını göz bəbəyi kimi qoruyacağına, ləyaqətli xidmət nümunəsi göstərəcəyinə əminlik ifadə olunub.

Məlumat üçün qeyd edək ki, hər iki hərbi hissədə ildönümü münasibətilə keçirilən tədbirdə hissə komandirlərinin müvafiq əmri ilə xidmətdə fərqlənmiş hərbi qulluqçulara mükafatlar təqdim olunub.

**Mətbuat xidməti**

# DAĞLAR QOYNUNDA QORUNAN KİÇİK QALA - 17071 SAYLI HƏRBİ HİSSƏ

Böyük Qafqaz sıra dağlarının ətəklərində, deyərdim ki, Azərbaycanın ən gözəl guşələrindən olan Qəbələ rayonunda yerləşən Daxili Qoşunların 17071 saylı hərbi hissəsi öz görünüşü baxımından təbiətin əsrarəngizliyi ilə həmahəngdir. Hərbi hissə haqqında ümumi məlumatım olsa da, hər şeyi yaxından görmək və şahidi olmaq insanda bir qədər fərqli təəssürat yaradır. Belə ki, yaxın günlərdə məqsədli qrupun tərkibində ezamiyyətim zamanı güclü maddi-texniki bazaya malik olan hərbi hissənin şəxsi heyətinin döyüş hazırlığı, mənəvi-psixoloji durumu ilə yaxından tanış olmağa çalışdım.

Məlumdur ki, son illər ərzində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının respublikamızın müxtəlif bölgələrində müasir standartlara cavab verən yeni hərbi hissələri yaradılır. Bunlardan biri olan 17071 saylı hərbi hissənin xidməti-döyüş fəaliyyəti qanunla müəyyən edilmiş vəzifələrin icrasına hazırlıqla müəyyən olunur.

İlkin mərhələdə dislokasiya yerinin xüsusiyyətlərinin dərindən öyrənilməsi, regiona uyğun əməliyyat şəraitinin təhlil edilməsi, bu məqsədlə icra və hüquq-mühafizə orqanları ilə əlaqələrin qurulması və qarşılıqlı əlaqənin yaradılması istiqamətində tədbirlər diqqət mərkəzində saxlanmaqdadır. Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Xalid Hüseynov diqqətə çatdırdı ki, Daxili İşlər Naziri və Daxili Qoşunlar Komandanlığı tərəfindən göstərilən diqqət və mövcud tələbkarlıq hər birimizi vəzifələrimizin icrasına məsuliyyətlə yanaşmağa sövq edir. Hərbi hissədə döyüş hazırlığının qorunub saxlanılması, şəxsi heyətdə yüksək döyüş ruhunun formalaşdırılması, maddi-tədris bazasının möhkəmləndirilməsi, döyüş hazırlığının qorunub saxlanılması ən vacib məsələlərdəndir.

Hərbi hissədə döyüş hazırlığı ilə yanaşı, mənəvi-psixoloji vəziyyətin yüksək səviyyədə saxlanılmasına da xüsusi önəm verilir. Şəxsi heyətlə təlim-tərbiyə prosesi xidməti-döyüş fəaliyyətinin əsasını təşkil edir. Polkovnik-leytenant X.Hüseynov həmçinin, qeyd etdi ki, mənəvi-psixoloji hazırlıq planına uyğun olaraq, şəxsi heyətlə vaxtlı-vaxtında müvafiq mövzularda məşğələlər keçirilir. Məşğələlər zamanı hərbi qulluqçulara milli-mənəvi dəyərlərə hörmət, dövlət və dövlətçiliyimizə sədaqət, verilən tapşırıqlara qeyd-şərtsiz əməl olunması kimi məsələlər aşılanır. Şəxsi heyətə müsbət keyfiyyətlərin aşılanmasında mühüm rol oynayan ictimai-siyasi hazırlıq dərslərində Milli Lider Heydər Əliyevin həyatı, siyasi irsi öyrədilir, Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərbi qüdrətinin artırılması istiqamətində həyata keçirilən islahatlar barədə məlumatlar verilir.





## HƏRBİ HİSSƏDƏ YENİDƏNQURMA İŞLƏRİ DAVAM ETMƏKDƏDİR

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant X.Hüseynov bizi hərbi hissə ilə tanış edərkən hərbi hissə komandirinin əmrinə əsasən bu gün də yenidənqurma işlərinin aparıldığını diqqətə çatdırmağı unutmadı. Bildirdi ki, şəxsi heyətdə mənəvi kamillik və estetik mədəniyyətin yüksəldilməsi üçün asudə vaxtın təşkil olunması məqsədilə yeni, təxminən 200 kvadratmetr ərazidə park salınıb, eyni zamanda səkkiz ədəd altı nəfərlik söhbət yeri hazırlanıb. Parkda yaşıllıqlar salınıb, yeni idman şəhərciyi yaradılıb. Bütün bunlarla yanaşı həmçinin, dözümlüyün artırılması məqsədilə xüsusi təyinatlı dəstənin şəxsi heyəti üçün yeni idman zalı hazırlanıb, hərbi qulluqçuların istifadəsinə verilib. Sözsüz ki, yaradılan bütün şərait hərbi qulluqçuların rifah halının yaxşılaşmasına, asudə vaxtın daha səmərəli təşkil olunmasına yönəlib.

Hərbi hissədə müasir tələblərə cavab verən, tamamilə avtomatlaşdırılmış hamam-camaşırxana kompleksi də fəaliyyət göstərir. Camaşırxanada quraşdırılmış paltaryuyan və quruducu maşınlar şəxsi heyəti istənilən vaxt təmiz paltar və yataq dəstləri ilə təmin edir. Burada camaşırlar yuyulub, ütülənib çeşidləndikdən sonra yenidən bölmələrə təhvil verilir.

Qazanxana ən son texnologiyaya əsaslanan avadanlıqla təchiz olunub ki, bu da şəxsi heyətin sosial şəraitinin müasir tələblərə cavab verdiyini sübut edir.

Şəxsi heyətin geyiminin səliqəliliyini qorumaq məqsədilə bölmələrdə məişət otaqları da yaradılıb.

## DÖYÜŞ HAZIRLIĞININ QORUNUB SAXLANILMASINDA XÜSUSİ TƏYİNATLI DƏSTƏNİN "CANAVARLARI" FƏRQLƏNİRLƏR

Hərbi hissələrimizdə fəaliyyət göstərən xüsusi təyinatlı dəstələrin hərbi qulluqçularının silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində həyata keçirdiyi xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.

17071 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandirinin vəzifəsini icra edən kapitan Elçin Babayevin sözlərinə görə, dəstə hər an qarşıya çıxa biləcək qəfləti tapşırıqları uğurla yerinə yetirməyə qadirdir. Artıq 15 ildir ki, hərbi xidmətdə olan dəstə komandiri vəzifə borclarından irəli gələn tələblərdən danışdı, hava şəraitindən asılı olmayaraq, şəxsi heyətlə təlim-məşq proseslərinin davamlı olaraq keçirildiyini bildirdi. Qeyd etdi ki, şəxsi heyətin döyüş təlimi Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq Direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların dünyagörüşü, mənəvi-psixoloji keyfiyyətləri təkmilləşdirilir.








17071 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin fəaliyyəti digər hərbi hissələrin dəstələrindən öz spesifikliyi ilə fərqlənir. Əsas etibarilə çətin iqlim şəraitində təlimlərin təşkil olunub keçirilməsinin diqqət mərkəzində olduğu vurğulandı. Döyüş təliminin təşkili və keçirilməsi ilə əlaqədar kapitan E.Babayev söylədi ki, təsdiq olunmuş müvafiq plana əsasən, keçirilən məşğələlər dəstənin üzərinə düşən vəzifələrin və tapşırıqların əhəmiyyətinin dərk edilməsi istiqamətində təşkil olunur. O, şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsi, yüksək nizam-intizamın və sayıqlığın təkmilləşdirilməsi, fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsi üçün əlindən gələni əsirgəmir. Xüsusi təyinatlı dəstənin tərkibində olan döyüş texnikasından bacarıqla və peşəkarcasına istifadə edə bilmələri üçün müxtəlif ərazi relyefində və hava şəraitində məşğələlər keçirilir. Təlimin əsas mahiyyətinin verilmiş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi olduğunu deyən dəstə komandiri qeyd etdi ki, praktiki məşğələlər zamanı hərbi qulluqçulara xüsusi metod və vasitələr öyrədilir: "Cinayətkar dəstələrin zərərsizləşdirilməsi və tərksilah edilməsi üzrə praktiki fəaliyyətə üstünlük verilir. Təlim və məşğələlərin vaxtında müasir metod və üsullarla keçirilməsi hərbi qulluqçuların döyüş qabiliyyətinin artırılmasına xidmət edir".

**baş leytenant Nigar Ağayeva**

3_Layout 1 30.08.2019 10:20 Page 1



# İSTEHKAMÇILARIMIZ HƏRBİ XİDMƏTİ LAYİQİNCƏ APARIRLAR

16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin istehkamçı yarımqrupları tərəfindən tapşırıqların icrası zamanı yüksək döyüş hazırlığı nümayiş etdirilir. Hərbi hissə komandirinin təsdiq etdiyi müvafiq plana əsasən, istehkamçıların döyüş hazırlığı ayda iki dəfə (bir dəfə gecə, bir dəfə gündüz) yoxlanılır. Şəxsi heyətlə hər həftənin şənbə günü ixtisas hazırlığı üzrə nəzəri və praktiki məşğələlər təşkil olunub keçirilir. Məşğələlər yarımqrup tərkibində həyata keçirilir.

İstehkamçı yarımqrupun əsas vəzifələri axtarış aparılan ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılmasıdır. Xüsusi dövlət tədbirlərində əraziyə daxil olan avtomobillərə nəzarət-buraxılış məntəqəsində baxış keçirərək, qanunsuz əşyaların, partlayıcı maddələrin axtarılaraq aşkar edilməsi də istehkamçı yarımqrupun qarşısında duran vəzifələrdir.





Keçirilən təlimlər zamanı müəyyən edilmiş vəzifələrin icrası üçün ayrı-ayrı elementlərin nəzəri olaraq öyrənilməsinə və praktiki məşq etdirilməsinə xüsusi diqqət yetirilir. Təhlükəsizlik qaydalarına əməl olunması da məşğələlər zamanı önəm verilən məsələlərdəndir.

İstehkamçıların peşə vərdişlərinin daha da təkmilləşdirilməsi diqqət mərkəzində saxlanılır. Onlar Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) təşkil etdiyi və Türkiyə Respublikasında keçirilən müvafiq kurslara cəlb olunurlar. Kursu müvəffəqiyyətlə başa vuran hərbi qulluqçulara bir qayda olaraq sertifikatlar təqdim olunur.

Hərbi hissənin zabit və gizirləri ilə mühəndis hazırlığı, kimya və mühəndis silahları vasitələrindən istifadə edilməsi, qorunub saxlanılması üzrə məşğələlərin aparılması, qərargahda kimya və mühəndis xidmətinin rəisi mayor Ruslan Rəhimovun funksional vəzifələrindəndir. Həmçinin, bölmələrdə, anbarda olan kimya və mühəndis silahları vasitələrindən düzgün istifadə edilməsini və saxlanmasını nəzarətdə saxlamaqla mayor R.Rəhimov üç ayda bir dəfədən az olmayaraq onların sayına, vəziyyətinə şəxsən baxış keçirir.

Bütün görülən işləri təfsilatı ilə diqqətimizə çatdıran xidmət rəisi kimya və mühəndis xidmətinin kargüzarı çavuş Jalə Heydərovanın da bir hərbi qulluqçu kimi üzərinə düşən vəzifələrin icrası zamanı fəallıq nümayiş etdirdiyini xüsusi olaraq vurğuladı. Çavuş J.Heydərova maddi vəsaitlərin uçotuna, qeydiyyat blanklarının və sənədlərin qorunub saxlanılmasına, anbarlardan maddi vəsaitlərin buraxılması üzrə sənədlərin düzgün tərtib edilməsinə ciddi nəzarət edir. Kitabları, başqa uçot və qeydiyyat sənədlərini düzgün aparmaq, hesabat sənədlərini tərtib etmək onun fuksional vəzilərinə aiddir. Öz vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan kargüzar öz xidmətini Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunlar Komandanının müvafiq əmrinə əsasən yerinə yetirir. Xidmət rəisi tərəfindən nümunəvi hərbi qulluqçu kimi dəyərləndirilən kargüzar həm də cari ildə hərbi hissədə keçirilən ümumi inspeksiya yoxlaması zamanı da fərqlənərək, yoxlamanı uğurla başa vurmağı bacarıb.

Bir sözlə desək, 16075 saylı hərbi hissənin istehkamçıları bundan sonra da qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirəcək və bu fəaliyyətdə kimya və mühəndis xidməti vəzifə borcundan irəli gələn tələblərə məsuliyyətlə yanaşacaq, rəhbərlik tərəfindən göstərilən etimadı hər zaman doğruldacaq.

**baş leytenant Nigar Ağayeva**

NÜMUNƏVİ XİDMƏT

# TƏLİM VƏ MƏŞĞƏLƏLƏR ŞƏXSİ HEYƏTİN PEŞƏ VƏRDİŞLƏRİNİ ARTIRIR, DÖYÜŞ QABİLİYYƏTİNİ TƏKMİLLƏŞDİRİR

12318 saylı hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri də xüsusi təyinatlı dəstədir. Dəstənin şəxsi heyəti regionda ictimai təhlükəsizliyin qorunub saxlanılması, hüquqazidd əməllərin qarşısının alınması, silahlı cinayətkarların axtarıb tutulması və zərərsizləşdirilməsində xüsusi fəallıq göstərir.





Çavuş Orxan Əhmədov və əsgər Taleh Hüseynov dəstənin nümunəvi hərbi qulluqçularındandırlar.

Çavuş O.Əhmədov 1991-ci il iyulun 13-də Naxçıvan şəhərində dünyaya göz açıb. Orta təhsilini Bakı şəhərindəki Həsən Qorçiyev adına məktəbdə alıb. 2009-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində əsgəri xidmət keçib.

2016-cı ilin iyun ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini 12318 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsinə təyinat alıb. 2017-ci ilin avqust ayından isə hərbi hissənin xüsusi təyinatlı dəstəsində atıcı vəzifəsində xidmət edir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur, nizam-intizamı ilə şəxsi heyətə nümunədir.

O, şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsi, eləcə də yüksək nizam-intizamın və sayıqlığın təkmilləşdirilməsi, fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsi üçün keçirilən məşğələlərdə xüsusi fəallıq göstərir. Hər zaman öz üzərində çalışan hərbi qulluqçumuz hərbi biliklərini mütəmadi olaraq artırmağa səy göstərir.

Digər hərbi qulluqçumuz - əsgər T.Hüseynov isə 1993-cü il martın 6-da Gəncə şəhərində anadan olub. 2011-ci ildə Gəncə şəhəri 3 saylı peşə litseyini bitirib. 2011-2012-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2013-cü ilin mart ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi 12318 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsində, 2015-ci ilin dekabr ayından isə xüsusi təyinatlı dəstədə xidmət edir. Hərbi qulluqçumuz cari ilin inspeksiya yoxlamasını "əla" qiymətlə başa vurub.

Əsgər T.Hüseynov hərbi hissədə nizam-intizamlı, bilik və bacarıqlı, ən əsası isə xidmətə məsuliyyətlə yanaşan hərbi qulluqçu kimi tanınır. Peşə vərdişlərini artırır, döyüş qabiliyyətini təkmilləşdirmək üçün əlindən gələni əsirgəmir. Sadalanan bu müsbət keyfiyyətlərinə görə dəfələrlə Daxili Qoşunlar və hərbi hissə komandanlığı tərəfindən müxtəlif mükafatlara layiq görülüb.

**Bu cür hərbi qulluqçuların timsalında qətiyyətlə söyləmək olar ki, dəstənin şəxsi heyəti qarşıya qoyulmuş bütün tapşırıqları məsuliyyətlə icra edir.**

**baş leytenant Xədicə Hacızadə**

*Şəhidlərimiz*

# TALEYİNƏ DÖYÜŞÇÜ OLMAQ ŞƏRƏFLİ SINAĞI YAZILMIŞDI...

"…. Burada hər şey yaxşıdır. Hələlik bizimkilər sürətlə irəliləyirlər. Yəqin ki, Mardakertin (Ağdərə rayonuna sovet dövründə verilmiş qondarma ad - Y.A.) və onun kəndlərinin alınmasından xəbəriniz oldu...

... Belə getsə, yaxın vaxtda ermənilərin anası ağlar qalacaq...

...Biz gəlib bu kəndi alandan sonra onlar cəmi bir dəfə hücum elədilər. Düz 12 saat atışma getdi. Ancaq biz geri çəkilmədik"...

Müharibədə imkan düşdükcə, döyüşçülər ailələrinə məktub yazıb göndərirdilər. Bu gün vərəqləri saralmış o məktublar şəhid yadigarıdır və ön cəbhədə od-alovlu günlərin müəyyən məqamlarına işıq salır. Yuxarıda məzmunundan ayrı-ayrı cümlələri qeyd etdiyim məktubu 1992-ci ildə şəhid hərbi qulluqçumuz kiçik çavuş Cəbrayılov Fikrət Allahverdi oğlu yazıb.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının erməni işğalçılarına qarşı döyüşlərdə şəhid olmuş hərbi qulluqçularının siyahısında kiçik çavuş Fikrət Cəbrayılovun da adı var.

O, 1973-cü il fevralın 4-də İmişli rayonunun Şahverdili kəndində dünyaya göz açıb. Bu barədə İmişli Rayon Daxili İşlər Şöbəsinin (hazırda İmişli Rayon Polis Şöbəsi – Y.A.) verdiyi 9 iyun 1990-cı il tarixli müvafiq pasportda qeyd olunub. Allahverdi Cəbrayılov (2005-ci ildə dünyasını dəyişib - Y.A.) və Püstəxanım Cəbrayılovanın qurduğu ailədə iki oğul və iki qız övladı dünyaya gəlib. Ailənin böyük övladı Fikrət idi. Fikrət mehriban və zəhmətkeş bir ailədə böyüyüb. Adət-ənənələrimiz ruhunda tərbiyə almış Fikrət müsbət şəxsi keyfiyyətləri ilə kənddə seçilən oğullardan biri olub. Onun nəzərində valideynlər və el-oba uca ehtiram zirvəsində dayanırdılar. Ailə və el qeyrətini çəkən oğul kimi yetişmişdi. Təmkinli, dürüst, ləyaqətli və təvazökar gənc olaraq xatirələrdə qalıb.



Fikrət öncə Şahverdili kəndindəki tam orta məktəbdə, sonra isə İmişli şəhərindəki 1 nömrəli tam orta məktəbdə təhsil alıb. Orta təhsil haqqında attestatında əksər fənn üzrə qiymətləri "5"-dir, cəmi üç fəndən "4"-dür. Bu da onun təhsilə məsuliyyətlə yanaşdığının göstəricisidir. Müəllimlərinin və məktəb yoldaşlarının hörmətini qazanmışdı.

Onun tələbə olmaq, ali təhsil almaq arzusu baş tutmayıb. Belə bilikli, ictimai işlərdə fəal, iradəli və əzmkar xarakterli gənc peşə yolu seçəcəyi hər bir sahədə uğur qazanmaq potensialına malik idi. Ancaq taleyinə Vətən müdafiəçisi olmaq, ön cəbhədə döyüşçü kimi vuruşmaq şərəfli sınağı yazılmışdı...

Ailəsinin veridyi məlumata görə, F.Cəbrayılov hərbi xidmətə çağırılanadək rayondakı "Uğur" tikinti kooperativində usta köməkçisi işləyib. 1991-ci ilin dekabr ayında isə İmişli Rayon Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İmişli Rayon Şöbəsi - Y.A.) tərəfindən hərbi xidmətə çağırılıb.

Daxili Qoşunların Arxivinin verdiyi 21.06.2019-cu il tarixli arayışda F.Cəbrayılovun Daxili Qoşunların 5456 saylı (hazırda 99713 saylı hərbi hissə - Y.A.) hərbi hissə komandirinin 11.03.1992-ci il tarixli müvafiq əmri ilə "sıravi" hərbi rütbəsi verilməklə, şəxsi heyətin siyahısına daxil edildiyi, təlim məntəqəsinin atıcısı təyin olunduğu göstərilib. Fikrət bu hərbi hissədə hərbi andı qəbul edib, döyüş təlimində çalışqanlıq göstərib, nizam-intizamı ilə fərqlənib.

5456 saylı hərbi hissə komandirinin 15.04.1992-ci il tarixli müvafiq əmri ilə Fikrətə "kiçik çavuş" hərbi rütbəsi verilərək, 4-cü bölükdə manqa komandiri vəzifəsinə təyin olunub. Bu vəzifədə nümunəvi xidməti ilə hərbi hissə komandanlığının etimadını doğruldub.

1992-ci ilin may ayında kiçik çavuş F.Cəbrayılov 5456 saylı hərbi hissədən döyüş tapşırıqlarını yerinə yetirmək üçün Ağdam rayonunun Papravənd kəndinə ezam edilib. Burada düşmənlə təmas xəttində döyüş mövqelərimizin müdafiəsində dayanıb.

Növbəti dəfə həmin ilin iyun ayında hərbi hissənin şəxsi heyətinin tərkibində Ağdam rayonuna göndərilib. Burada düşmənin yaşayış məntəqələrimizə hücumlarının qarşısının alınmasında qətiyyətlə iştirak edib.



1992-ci ilin iyul ayının sonundan etibarən Fikrət 5456 saylı hərbi hissədən o vaxt Ağdam rayonunda yerləşmiş 3650 saylı hərbi hissənin (hazırda 67987 saylı hərbi hissə - Y.A.) tərkibinə keçirilib. 3650 saylı hərbi hissənin şəxsi heyəti sıralarında respublikamızın ərazi bütövlüyünün bərpası, torpaqlarımızın düşmənin hərbi təcavüzündən müdafiəsi uğrunda döyüşlərdə hərbi anda sədaqət və cəsarət nümunəsi göstərib. Onun döyüş yolu Qalayçılar, Əliağalı, Yeni Qaralar kəndləri və Fərrux yüksəkliyi ətrafındakı ərazilərdən keçib. Ağır döyüş sınaqları onu çox sarsıtsa da, yenilməz döyüş ruhu vardı.

Kiçik çavuş F.Cəbrayılov 1992-ci il oktyabrın 12-də Ağdam rayonunun Qazançı kəndi ətrafında düşmənlə döyüş zamanı başından və sağ qolundan ağır qəlpə yarası alaraq, şəhidlik zirvəsinə ucalıb. Bu barədə AZ - I 973363 nömrəli, 06.11.2018-ci il tarixli ölüm haqqında şəhadətnamədə də qeyd olunub.

Şəhid hərbi qulluqçumuz doğma yurdu Şahverdili kəndinin qəbiristanlığında dəfn edilib. Məzarı üzərində ölüm tarixi 13.10.1992-ci il həkk olunub.

Şahverdili kəndinin tam orta məktəbi şəhidin adını daşıyır. Məktəbin önündə onun büstü qoyulub.

1992-ci il noyabrın 19-da çapdan çıxmış "Səs" qəzetinin 48-ci sayında şəhid F.Cəbrayılovun ömür yolu haqqında Səyyad Aranın müəllifi olduğu "Allah tərəfindən sevilənlər cavan ölürlər" başlıqlı məqalə dərc edilib.

Bundan əlavə, 1995-ci ildə Bakıdakı "Göytürk" nəşriyyatında işıq üzü görmüş, Yusif Cəfərlinin müəllifi olduğu "İmişlinin şəhid oğulları" kitabında və bir sıra elektron informasiya vasitələrində şəhid hərbi qulluqçumuz barədə məlumatlar verilib.

Maraqlı fakt olaraq qeyd edim ki, Fikrətin ata tərəfdən babası və onun qardaşları 1937-ci ildə repressiyaya məruz qalaraq, Qazaxıstana sürgün ediliblər.

Fikrətin anasının əmisi isə 1943-cü ilin fevralında faşistlərə qarşı Kursk döyüşündə həlak olub.

Hər bir qeyrətli və fədakar oğul öz soykökünün, nəslinin, ailəsinin layiqli yetirməsidir. Belə oğullardan biri kimi Fikrətin ürəyi son nəfəsinədək Vətən sevgisi ilə döyündü.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

4_Layout 1 29.08.2019 18:54 Page 1



# KİTAB BİLİK VƏ MƏNƏVİ TƏRBİYƏ MƏNBƏYİDİR

Bəşəriyyətin bu günədək inkişafı prosesində kitabın xüsusi rolu və yeri barədə çox danışılıb, ətraflı yazılıb. İnamla qeyd etmək olar ki, kitabın yaranması ilə insanların dünyagörüşü, təfəkkürü və həyata baxışlarında böyük dəyişiklik baş verib, habelə şüurlarında davamlı yenilənməyə təkan verilib. Kitab yaranmasının təməl dövründən bilik xəzinəsi və çoxəsrlik müddəti əhatə etməklə, əsas informasiya daşıyıcısı kimi cəmiyyətdə dəyərləndirilib, insanların maariflənməsində kəsərli mövqe qazanıb.




Tarixi qaynaqlardan məlum olduğu kimi, müxtəlif ölkələrdə ilk kitablar insanların əl əməyi ilə ərsəyə gətirilib. Bu səbəbdən hər bir kitabın hazırlanmasına xeyli vaxt gərək olub. Həmin nadir kitabların bir sıra nüsxələri ayrı-ayrı ölkələrin mədəni irsinin qiymətli nümunəsi kimi muzeylər, kitabxanalar, əlyazmalar fondları, şəxsi kolleksiyalarda qorunub saxlanılır.

Bəşər övladının tapındığı və mənəvi əqidəsində silinməz iz buraxan böyük dinlərin müqəddəs kitabları dünya tarixində yeni bir möhtəşəm səhifə açıb. Bu müqəddəs kitabların nazil olması dini etiqadın formalaşmasının təməlini qoyub, bununla yanaşı, ümumilikdə, kitab məfhumunu insanların nəzərində qüdrət zirvəsinə qaldırıb.

Qədim dövrlərdə kitab mətnləri papirus, dəri kimi materialların üzərinə yazılıb. Tarixçilərin qədim kitablardan biri hesab etdikləri "Avesta"nın yazıları da dəri üzərinə həkk edilib. Sonrakı inkişaf və təkamül prosesində kağızın kəşfi ilə kitabçılıq sahəsində yeni bir mərhələ başlayıb. Kitabçılıq sahəsi xəttatlıq, cildçilik, çapçılıq kimi peşə növlərinin yaranmasını gerçəkləşdirib. Dünyanın müxtəlif ölkələrində kitab emalatxanaları yaradılıb. Zaman keçdikcə kitab çapı üsulu da təkmilləşdirilib, yeni dəzgahlar, mexaniki vasitələr, nəşr materialları icad olunub.

Həqiqətən də kitab nəşri dünyada böyük texnoloji inkişaf mərhələlərindən keçib. Xüsusən XX və XXI əsrlərdə bu sahədə çoxşaxəli texnoloji nailiyyətlərə imza atılıb. Maraqlıdır ki, çoxəsrlik tarixə malik kitabçılıq sahəsində kağızdan kitabların çapı ən uzunömürlü və öz səmərəliliyini saxlayan vasitə kimi qəbul olunub. Düzdür, artıq biz müasir kompüter texnologiyaları dövründə yaşayırıq və elektron kitabların mövcudluğu da bunun əyani təzahürüdür. Ancaq, buna baxmayaraq, dünyanın qabaqcıl texnologiyaya malik hər hansı bir ölkəsi kağız kitabların nəşrindən hələ ki, imtina etməyib. Proqnozlara görə, yaxın və orta perspektivdə kağız kitabların çapı daha da təkmilləşdiriləcək, belə nəşrlər istifadədən çıxmayacaq. Bununla belə, elektron kitabların əhatə dairəsi müqayisəolunmaz dərəcədə genişlənəcək və əlçatanlığına görə oxucu kütləsi üçün çox böyük imkanlar yaranacaq. Onu da xüsusi vurğulamaq lazımdır ki, istər dünyada indiyədək çap olunmuş kitabların, istərsə də hazırlanmış elektron kitabların hansısa fövqəladə səbəbdən yox olması bəşəriyyət üçün öz tarixi yaddaşını itirməsi demək olar. Buna görə də növündən asılı olmayaraq, bütün kitablar hər bir dövlətin və xalqın, bütövlükdə, bəşəriyyətin əvəzsiz mədəni sərvətidir.

Qeyd etmək lazımdır ki, kitab müxtəlif xalqların ədəbi irsinin tanıdılması və yayılmasında, bədii sözün cəmiyyətlərin həyatında bərqərar olması, eləcə də öz təsir qüvvəsi ilə onların mütərəqqi zəmində istiqamətləndirilməsində vacib rol oynayıb. Bu gün də kitabın həmin təyinatı aktualdır.

Ümumilikdə, kitab məfhumu və ədəbiyyat bir-birinə çox bağlıdır. İndiyə qədər bədii təxəyyülün bəhrəsi olaraq meydana gələn çoxsaylı nəzm və nəsr əsəri məhz kitablarda öz əksini taparaq, oxucuların mütaliəsinə verilib. Məzmunca fərqli, yazılma üslubu ilə də bir-birinə bənzəməyən roman, povest, pyes, hekayə, şeir və digər bədii nümunələr kitab sayəsində böyük oxucu kütləsinin marağını cəlb edib. Bədii istedadın daşıyıcısı olan ədibləri kitablarının işıq üzü görməsi həmişə yaradıcı əzmkarlığa ruhlandırıb.

Dünyada çox mütəşəkkil olan kitabsevərlər təbəqəsi formalaşıb. Təsadüfi deyil ki, YUNESKO-nun 1995-ci il noyabrın 15-də keçirilmiş 28-ci sessiyasında aprelin 23-ü tarixi Ümumdünya kitab və müəllif hüquqları günü elan olunub. 1996-cı ildən başlayaraq bu gün dünyanın əksər ölkəsində qeyd edilir. Aprelin 23-ü tarixinin seçilməsi bütün dünyada məşhur olan böyük ədiblərin - Servantes, Şekspirin həmin gündə vəfat etməsi ilə əlaqədardır. Bu addım adları göstərilən dahilərin xatirəsinə ehtiramı ifadə edir. Həmin gün kitabın təbliğ olunması baxımından, mədəni ənənələrin inkişafına diqqəti yönəltmək üçün önəmlidir.

2012-ci ildən bu günədək hər il fevralın 14-də dünya kitabsevərləri arasında Beynəlxalq kitab hədiyyə edilməsi günü də qeyd olunur. Həmin günün əsas ənənəvi cəhəti insanların bir-birinə kitab hədiyyə etməsidir.

Ayrı-ayrı ölkələrdə kitaba abidə qoyulub. Zəngin kitabxana fonduna malik dövlətlər var ki, onlar bu mədəni mirasla haqlı olaraq fəxr edirlər. Təqdirəlayiq bir haldır ki, dünyada analoqu olmayan Miniatür kitablar muzeyi ölkəmizin paytaxtında, İçərişəhərdə fəaliyyət göstərir. Burada həcmcə çox kiçik olan, qeyri-adi dizaynla işlənmiş kitablar qorunub saxlanılır.

XX əsrdən etibarən dünya üzrə kitabxanaçılıq sahəsi hər il müxtəlif ölkələrdə çoxlu tirajla çap olunan kitabların qeydiyyatının aparılması və məlumat bazasının yaradılması problemləri ilə üzləşib. Beynəlxalq Kitabxanalar Federasiyası tərəfindən bu problemin həlli məqsədilə kitablara standart nömrələnmə sistemi tətbiq olunur. Beləliklə, bu sistem kitabların axtarışının asanlaşdırılmasına imkan verir.

Bilik mənbəyi olan kitablarsız elmi-texniki tərəqqini də təsəvvür etmək mümkün deyil. Alimlər, tədqiqatçılar, arxivşünaslar, jurnalistlər, pedaqoqlar və digər peşə sahibləri üçün kitab çox gərəkli məlumatlandırıcı vasitədir.

Cəmiyyətdə hərbi-vətənpərvərlik tərbiyəsi işində də kitabların özünəməxsus yeri və rolu var. Xüsusən Vətənimiz, dövlətçilik və hərb tarixi-




miz, adət-ənənələrimiz, qəhrəmanlarımız barədə kitablara azərbaycançılıq ideyasının təbliğində geniş istinad olunmalıdır.

Bizə düşmən dövlət olan Ermənistanla informasiya müharibəsində Azərbaycanın haqlı mövqeyinə dair informasiyaları əks etdirən çap və elektron növlü kitabları yaymaq, etibarlı, səhih mənbə kimi tanıtmaq zəruri məsələlərdən biridir.

Dünyada elə ölkələr var ki, orada kitabçılıq ənənəsi yox dərəcəsindədir, əhalinin böyük bir qismi üçün kitablar əlçatan deyil. Belə ölkələrin gələcəyini qaranlığa bürünmüş kimi təsəvvür etmək olar. Doğma Azərbaycanımız kitaba bağlı, kitabsevər ölkələr sırasındadır.

Kitab aydın zəka, çoxşaxəli bilik və mənəvi tərbiyənin vəhdəti deməkdir.

**Yalçın Abbasov**

# CƏMİYYƏTİN GƏLƏCƏYİ ÜÇÜN ƏN BÖYÜK TƏHLÜKƏ DAŞIYICISI - NARKOMANİYA...

***Narkomaniya və narkobiznes insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, cinayətkarlığın artmasına səbəb olan amildir.***

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**




Narkomaniya və narkotizm sarsıntı və faciələri ilə hüdudsuz olan sosial-iqtisadi, cinayət-hüquqi, mənəvi-psixoloji və tibbi cəhətdən problemdir.

Narkomaniya yoluxucu xəstəlik kimi əhali, xüsusən də gənclər arasında yayılmış, öz miqyaslarını genişləndirərək transmilliləşmiş, bəşəriyyətin sosial-iqtisadi, mənəvi-əxlaqi dayaqlarını dağıtmaq səviyyəsinə çatmışdır. Hazırda vətəndaşları narkotizasiyasının acı nəticələrini hiss etməyən ölkə tapmaq mümkün deyildir. Narkomanlıq və narkobiznes ərazi, milli, dini, sinfi və digər sərhədlər tanımayan, qlobal xarakter daşıyan beynəlxalq probleme çevrilib.

İnsanların sağlamlığına birbaşa neqativ təsirindən başqa narkomaniyanın ictimai təhlükəliliyi ondan ibarətdir ki, o müxtəlif tamah-zorakı xarakterli cinayətlərin törədilməsinə şərait yaradan kriminogen amil kimi çıxış edir. Narkomanlığın ictimai təhlükəliliyi insanların sağlamlığının ciddi pozulmasında, intellektuallığın, ictimai fəallığın aşağı düşməsində, sosial əlaqələrin daralmasında və parçalanmasındadır. Narkotiklərdən istifadə nəticəsində psixi xəstəliklərə düçar olan, cəmiyyətdə tüfeyli həyat sürən narkomanlar tərəfindən ictimai təhlükəli əməllərin törədilməsi hallarına tez-tez rast gəlmək mümkündür.

Qiyməti çox baha olan və durmadan artan narkotiklərdən asılı vəziyyətə düşən narkoman, narkotik vasitələr almaq üçün vəsait əldə etmək məqsədilə cinayət törətməyə yüksək hazırlıq vəziyyətində olur. Narkotik vasitələrin qəbuluna ehtiyac gücləndikdə, onun davranışının kriminal səbəbi artır. Narkomanın eqoizmi, onun bütün niyyət və hərəkətləri hər hansı bir yolla onun üçün zəruri olan narkotik dozanın əldə edilməsinə yönəlmişdir və onu hüquqazidd hərəkətlərə sövq edir. Hətta ən zəif narkotik hərəkətin koordinasiyasını pozmağa və diqqəti aşağı salmağa qadirdir ki, bu da çox hallarda cinayətkar etinasızlığa, diqqətsizliyə, cinayətkar özünəgüvənməyə gətirib çıxara bilər. Xroniki narkomanların bir çoxu narkotik vasitəni və ya psixotrop maddəni əldə etmək üçün maddi vəsaitlərin tapılması yolunu oğurluq, soyğunçuluq, quldurluq və digər bu kimi tamah və tamah-zorakı cinayətlərin törədilməsində görürlər.

Narkomanlıq cəmiyyətin gələcəyi üçün iki böyük təhlükə daşıyıcısıdır: birincisi, narkomaniya ilə xəstələnmiş fərdin şəxsiyyətində əsaslı dəyişikliklər baş verir ki, bunlar da, öz növbəsində, onun və ailəsinin həyatında mənfi dəyişmələrə gətirib çıxarır. İkincisi, narkomaniya cinayətkarlığın, zorakılığın, işsizliyin artmasına, dəhşətli xəstəliklərdən olan QİÇS və hepatitin yayılmasına şərait yaradır.

Narkotik qəbul edən yeniyetmənin kriminal meylləri xüsusən təhlükəlidir. Belə ki, neqativ psixiki kənarlaşmalar onun yaş xüsusiyyətləri, xarakterin zəifliyi, yüksək emosional vəziyyəti, mənəvi özünə nəzarətin olmaması ilə bağlı xüsusən ağırlaşır. Beləliklə, eyforiya vəziyyətində yeniyetmələr yaşlılara nəzərən hüquqpozuntularına daha çox meyllidirlər.

Beləliklə, artıq qeyd etdiyimiz kimi, narkomaniya sosial mənəviyyatın aşağı düşməsi olmaqla cəmiyyətə zidd, cinayətkar meyllərin və təmayüllərin, təcavüzkarlığın formalaşmasına, xüsusən ağır cinayətlərin törədilməsinə gətirib çıxarır.

Tamahkarlıq, qeyri-insani zorakılıq və qəddarlıq vəhşi eqoizm - əksər narkomanlara xas olan keyfiyyətlərdir. O da aydındır ki, narkotiklər olan yerdə cinayət də vardır. Bu bəlaya mübtəla olanların bir çoxu narkotik vasitə almağa görə pulu oğurluq, quldurluq, soyçunçuluq yolu ilə qazanır. Bu məqsədlə adam öldürməkdən belə çəkinmirlər.

Narkomaniya və narkotizmlə effektiv mübarizə aparmaq, cəmiyyət və şəxsiyyət üçün olduqca təhlükəli olan təzahürlərin yayılmasının qarşısını qətiyyətlə almaq, narkotik vasitələrdən və psixotrop maddələrdən asılılığın tibbi, sosial, psixoloji və iqtisadi xarakterli mənfi nəticələrini aradan qaldırmaq istəyən hamının, o cümlədən dövlət orqanlarının, ictimai təşkilatların, ayrı-ayrı vətəndaşların xüsusi diqqətini tələb edir. Ona görə də onunla mübarizəyə hər bir ölkənin aparıcı kriminoloqları, narkoloqları, psixoloqları, psixiatrları, sosioloqları, habelə xarici ölkələrin mütəxəssisləri cəlb edilməlidir. Narkomanlığın qarşısının alınmasında və narkobizneslə mübarizədə hüquq-mühafizə orqanları ilə bərabər səhiyyə və təhsil müəssisələri də xüsusi rol oynamalıdırlar.

Eyni zamanda, nakromanlığın profilaktikasında kütləvi informasiya vasitələrinin, mətbuat, radio və televiziyanın, xüsusən də internetin imkanlarından daha geniş və səmərəli şəkildə istifadə edilməlidir.

Narkomaniyanın yayılması ilə mübarizədə ən vacib istiqamətlərdən biri də respublika əhalisi arasında sağlam həyat tərzinin təbliği və gənclərin narkotizm əleyhinə düzgün və sistematik tərbiyələndirilməsidir. Gənc nəsil əhalinin narkomaniyanın toruna rast gəldiyi yanılmadan, çətinliklərdən, münaqişələrdən onları dəf etməkdə çətinlik çəkdiyindən sınan ən gövrək hissəsidir.

Narkomaniya və narkotizmin real vəziyyəti, onu doğuran sosial-iqtisadi hadisələri, narkotizmlə mübarizədə dövlətin, cəmiyyətin mövcud imkan, qüvvə və vasitələri tam və dolğun şəkildə təhlil edilib qiymətləndirilməlidir. Narahatlıq, təlaş və vahimədən, real vəziyyətin müəyyən edilməsinə və dəqiq təhlilinə keçilməli, narkomaniya və narkotizmi xarakterizə edən əsas göstəricilər kəmiyyət və keyfiyyət baxımından ifadə edilməlidir. Yeniyetmə və gənclərin narkomaniya və narkobiznes "toruna" düşməsinin qarşısını almaq məqsədilə dövlət və cəmiyyətin bütün imkanları səfərbər edilməli, əks zərbənin əsas istiqamətləri, strategiyası və taktikası dəqiq hesablanmalıdır. İstər keçmiş ənənələrə, istərsə də dünya təcrübəsinə istinad edilərək, narkotizmə təsirin ən səmərəli üsulları axtarılaraq tapılmalıdır. Zənnimizcə, narkomaniya və narkotizmlə mübarizədə ayrı-ayrı ictimai təşkilatların, xeyriyyə cəmiyyətlərinin, dini qurumların imkanlarından və bacarıqlarından maksimum istifadə edilməlidir.

**Bir sözlə, hər birimiz, cəmiyyətin bir fərdi olaraq narkomanlığın profilaktikası və narkobizneslə mübarizə işinə hazır olmalıyıq.**

# HƏRBİ XƏBƏRLƏR

-YENİLİKLƏR -

## ABŞ ordusunun yeni tüfəngləri SSRİ silahının klonudur



ABŞ dəniz piyadalarının yeni M-27 tüfəngləri SSRİ-nin yarım əsr əvvəl istehsal etdiyi RPK (Kalaşnikovun əl pulemyotu) silahının klonudur. Ordu.az xəbər verir ki, bu barədə ABŞ-ın "We Are The Mighty" nəşri məlumat yayıb.

Məlumatda bildirilir ki, SSRİ-də RPK-lar hələ 1964-cü ildə orduda RPD (Deptyarevin əl pulemyotu) silahlarını əvəzləməyə başladı. Daha sonra isə ilk avtomat, taxta əvəzinə plastik alt lülə örtüyü ilə əvəzlənib və ona gecə nişangahı əlavə edilib.

Nəşrin məlumatında qeyd edilir ki, yarıməsrlik xidmətinə baxmayaraq, RPK-nın qarşıda hələ uzun karyerası var.

M-27 avtomatik tüfəngləri Almaniyanın "Heckler & Koch" şirkəti tərəfindən yaradılıb. 2010-cu ildən etibarən bu silah ABŞ Dəniz Piyadaları Korpusu tərəfindən M-249 pulemyotunun əvəzləyicisi qismində alınır.

## Azərbaycanda ATAK helikopteri sınaqdan keçiriləcək



Türkiyə istehsalı olan T-129 ATAK kəşfiyyat-zərbə helikopterləri ilk dəfə Azərbaycan səmasında uçacaq.

"AzeriDefence"nin məlumatına görə, ötən gün Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilib ki, "TurAz Qartalı - 2019" təlimlərində Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus müxtəlif döyüş təyyarələri və helikopterlər Azərbaycana gələcək.

"AzeriDefence"nin araşdırmasına görə, ATAK helikopterləri Azərbaycandakı təlimlərə ilk dəfədir cəlb olunub və bu təlim həm də ATAK helikopterinin Azərbaycanda sınaqları deməkdir.

Azərbaycan ATAK helikopterlərinin satın alınması ilə maraqlanır və bir neçə il əvvəl həmin helikopterlərin Azərbaycana sınaqlara gətiriləcəyinə dair informasiyalar mövcud idi.

Qeyd edək ki, helikopter TUSAŞ şirkəti tərəfindən istehsal edilir. T-129 ATAK helikopteri ən son model avyonika və silah sistemləri ilə təchiz edilib. Heyəti 2 pilot olan ATAK helikopterinin uzunluğu 13,64 m, hündürlüyü 3,96 m, boş ağırlığı 2900 kq, rotorun diametri 11,90 metrdir. Maksimum sürət 278 km/saat, maksimum qalxma ağırlığı 5000 kq-dır. Maksimum silah yükü 1200 kq olan helikopterin qanadlarında 4 ədəd (hər biri 300 kq) silah bölməsi yer alır.

Yanacaq çəninin tutumu 750 kq olan helikopterin maksimum qalxma yüksəkliyi 6,096 m, əməliyyat yükü ilə qalxma səviyyəsi 3,048 m, yüksəkliyə qalxma sürəti 14 m/s, güc/ağırlıq nisbəti 550 AG/ton təşkil edir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000